**Ödəniş sərəncamının icrasından əvvəl məlumatlandırma**

| | | |
|---|---|---|
| 1. | Ödəniş sərəncamının icra edilməsi üçün tələb olunan məlumatlar və ya unikal eyniləşdirici | Qüsurlu ödəniş sənədləri icraya qəbul edilmir.<br><br>Ödəniş sənədi aşağıdakı hallarda qüsurlu sayılır:<br>• "Azərbaycan Respublikasında nağdsız hesablaşmalar və pul köçürmələri haqqında Təlimat"ın 4.7-ci bəndində göstərilmiş müddət keçdikdə;<br>• ödəniş sənədinin rekvizitlərində uyğunsuzluq olduqda;<br>• ödənişin təyinatı və əsası göstərilmədikdə;<br>• rəqəmlə və yazı ilə göstərilən məbləğlər arasında uyğunsuzluq olduqda;<br>• üzərində düzəliş və ya pozulmalar edildikdə;<br>• nüsxələr eyni olmadıqda;<br>• ödəniş sənədində və imza nümunələri vərəqəsində qeyd olunmuş imzalar arasında uyğunsuzluq olduqda;<br>• möhür olmadıqda və ya uyğun gəlmədikdə (imza və möhür nümunələri vərəqəsində nəzərdə tutulduğu halda). Bu tələb müvəqqəti olaraq möhür olmadan ödəniş sənədlərinin rəsmiləşdirildiyi hallara şamil edilmir.<br>• Ödəniş sərəncamının düzgün verilməsi və ya icra edilməsi üçün tələb olunan məlumatlar və ya unikal eyniləşdirici;<br>   ▪ Ad, soyad, ata adı<br>   ▪ FIN kod<br>   ▪ Seriya nömrəsi<br>   ▪ Mobil nömrə<br>   ▪ Doğum tarixi<br>   ▪ Hesab nömrəsi<br>   ▪ Kart rəqəmi |
| 2. | Ödəniş sərəncamının icra müddəti | Bank ödəniş sərəncamı qüsurlu olmadıqda, habelə Müştəri ilə bağlanılmış müqavilə ilə müəyyən edilmiş bütün şərtlər yerinə yetirildikdə avtorizə edilmiş ödəniş sərəncamını icraya qəbul edir.<br>Avtorizə edilmiş ödəniş sərəncamı əməliyyat günündən sonra təqdim olunduqda ödəniş sərəncamı növbəti əməliyyat günü icraya qəbul edilmiş hesab olunur. |

| | | |
|---|---|---|
| | | Bank ödəniş sərəncamını icraya qəbul etdiyi vaxtdan növbəti iş günündən gec olmayaraq icra edir.<br>Ödəniş sərəncamında həmin sərəncamın icrası üçün fərqli müddət razılaşdırıla bilər. Razılaşdırılan müddət ödəniş sərəncamının icra müddəti hesab edilir və həmin gün icra edilir. Bu müddət qeyri-iş gününə düşdükdə, ödəniş sərəncamının icra müddəti növbəti iş günü hesab edilir.<br>Ödəniş xidmətinin ödəniş terminalları vasitəsilə göstərildiyi hal istisna olmaqla, digər hallarda Müştərinin xeyrinə Banka daxil olan pul vəsaiti həmin əməliyyat günü Müştərinin ödəniş hesabına mədaxil edilir və (və ya) pul vəsaitinin istifadəsinə imkan yaradılır. Hesaba mədaxil edilməli olan pul vəsaitinin valyutası hesabda olan məbləğin valyutasından fərqli olduqda pul vəsaitinin hesaba mədaxil edilməsi müddəti Müştəri ilə Bank arasında bağlanılmış müqavilə ilə tənzimlənir.<br>Ödəniş xidmətləri ödəniş terminalları vasitəsilə göstərdikdə ödəyicidən qəbul olunmuş pul vəsaiti 5 (beş) iş günündən gec olmayaraq vəsait alanın ödəniş hesabına köçürülür. |
| 3. | Ödəniş xidmətinin göstərilməsi üçün tutulan haqlar | Bankın qüvvədə olan tarifləri ilə tənzimlənir və https://leobank.az/doc/tariffs_leobank_az.pdf saytında yerləşdirilir. |
| 4 | Valyuta mübadiləsi məzənnəsi | https://leobank.az/ saytında yerləşdirilir. |
| 5. | Nəzarət orqanının əlaqə məlumatları | Azərbaycan Respublikasının Mərkəzi Bankı:<br>Tel.: 493 11 22,<br>Faks: 493 55 41,<br>Elektron poçt ünvanı: mail@cbar.az |